# Xalqa xidmət məramı

**Ölkəmizin müstəqillik tarixində baş verən proseslərə nəzər saldıqda bir daha aydın olur ki, Azərbaycanın tərəqqisinin, qüdrətlənməsinin və dövlətçiliyimizin əbədiliyinin yolu məhz hər sahədə Heydər Əliyev siyasi kursunun davam etdirilməsindən, ulu öndərin ideyalarının gerçəkləşdirilməsindən keçir. 2004-cü il may ayının 10-da yaranan Heydər Əliyev Fondu ulu öndərin ideyalarının davam etdirilməsi məqsədlərinə xidmət edir.**

Heydər Əliyev Fondunun fəaliyyətə başlamasından ötən on beş il böyük zaman kəsiyi sayılmır. Lakin bu dövrdə ortaya qoyduğu fəaliyyət nümunələri ilə fond Azərbaycanın həyatında necə böyük rol oynadığını, qarşıya qoyduğu məqsədlərin əhəmiyyətinə, miqyasına və sanbalına görə ölkəmizdə və regionda analoqu olmayan ictimai qurum olduğunu sübut edib. Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə bu müddətdə Heydər Əliyev Fondunun gördüyü işlər, həyata keçirdiyi layihələr doğrudan da olduqca geniş spektrli, maraqlı və rəngarəngdir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da artıq 15 ildir ki, öz fəaliyyətini məhz humanizm prinsipləri əsasında qurub. Fond Azərbaycanda və ölkə hüdudlarından kənarda mükəmməl layihələr həyata keçirir, Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak edir. Heydər Əliyev Fondunun icra etdiyi infrastruktur layihələri yüz minlərlə vətəndaşımızın sosial qayğılarının həlli deməkdir. Fond ötən müddət ərzində bura üz tutmuş heç bir insanın probleminə, dərdinə biganə qalmayıb. İnsanlarla ünsiyyətdə olmağı, onları dinləməyi və eşitməyi, köməyə ehtiyacı olana kömək etməyi, mənəvi dəstək verməyi Mehriban xanım Heydər Əliyev Fondunun hər bir əməkdaşı qarşısında birbaşa vəzifə kimi müəyyənləşdirib.

Mehriban xanım bunları dövlət qurumlarında çalışan bütün insanların da əsas borcu, vəzifəsi bilir, onları insanlar qarşısındakı inzibati, ən əsası isə mənəvi məsuliyyətlərini heç zaman unutmamağa çağırır: "Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribanlıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar".

Ümid yeri kimi ona üz tutmuş, ona etibar etmiş sadə insanlarla ünsiyyətinin formal yox, hər zaman səmimiliyi Mehriban xanımın uğur sirridir. O, əldə edilmiş bütün nailiyyətlərin sadə insanlarla birgə fəaliyyət nəticəsində həyata keçirildiyini bildirir.

Mehriban xanım Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsində də öz fəaliyyətini məhz bu prinsiplər əsasında qurub. Onun bu vəzifədə irəli sürdüyü və icrasına birbaşa rəhbərlik etdiyi layihələrin hər biri sosialyönümlüdür. Hər biri vətəndaşları narahat edən köklü problemlərin həllinə yönəlib.

Mehriban xanım Əliyeva da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev kimi sözdən daha çox işi-gücü ilə, yaradıb ortaya qoyduğu parlaq nəticələrlə ölkəmizin və xalqımızın xidmətindədir...

Heydər Əliyev Fondu ulu öndərin ideyalarını rəhbər tutaraq ardıcıl və məqsədyönlü fəaliyyətini uğurla davam etdirir. Nəcib əməlləri ilə xeyirxahlıq ünvanına çevrilən, hər bir azərbaycanlının qürur yeri olan fond bundan sonra da öz fəaliyyəti ilə ümummilli lider Heydər Əliyevin adını yaşadacaq, Prezident İlham Əliyevin güclü Azərbaycan naminə yürütdüyü siyasi kursa layiqli dəstək verəcək.

Bu il mayın ayının 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasimdə cənab Prezident İlham Əliyev demişdir: "Biz bu gün, eyni zamanda, Heydər Əliyev Fondunun 15 illiyini qeyd edirik. On beş il bundan əvvəl Fond yaradıldı və bu illər ərzində bir çox sahələrdə - mədəniyyət, incəsənət, təhsil və digər sahələrdə çox böyük işlər gördü. Təhsil sahəsində deyə bilərəm ki, Fondun təşəbbüsü ilə başlanan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı ölkə miqyasında geniş vüsət aldı və ondan sonra dövlət xətti ilə 3 min 200-dən çox məktəb tikildi, təmir edildi. Fond səhiyyə sahəsində çox böyük işlər görür və bir çox hallarda bu işlər haqqında heç məlumat da verilmir. Yəni, ictimaiyyət bəlkə də məlumatlı deyil ki, nə qədər böyük işlər görülür, nə qədər insana kömək göstərilir, nə qədər insanı - uşağı, xəstəni Fondun xətti ilə aparılan müalicə normal həyata qaytarıb. Fondun çoxşaxəli fəaliyyəti Azərbaycanı dünyada tanıdır. Fondun dünya miqyasında çox böyük hörməti var. Azərbaycan reallıqlarının dünyaya çatdırılması istiqamətində - bizim musiqimizi, xalçaçılıq sənətini, muğam sənətini, digər mədəniyyət incilərimizi dünyaya çatdırmaq, təqdim etmək üçün Fond çox böyük işlər görür. Kitablar çap olunur, disklər hazırlanır, sərgilər, elmi-praktik konfranslar, simpoziumlar keçirilir. Mən Fondun əməkdaşlarını əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm və eyni zamanda, bildirmək istəyirəm ki, Fond Ulu Öndərin siyasi irsini təbliğ etmək üçün də böyük işlər görür."

Bu gün xalqımız Heydər Əliyevin xatirəsini ehtiramla xatırlayır, onun ideyalarından daim bəhrələnir. Heydər Əliyev Fondunun məqsədi ulu öndərin müəyyən etdiyi siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək verməkdir. Fond köməyə ehtiyacı olan insanların maddi-mənəvi hamisi rolunda çıxış edir, cəmiyyətdə yalnız sağlam ənənələrin, əxlaqi dəyərlərin möhkəmlənməsinə çalışır.

Xeyriyyəçilikdən tutmuş səhiyyə və təhsil sisteminin, mədəniyyət və incəsənətin inkişafı, mədəniyyətimizin və mədəni irsimizin dünyada təbliği, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, amnistiya təşəbbüsçüsü olmağa qədər müxtəlif sferalarda məhsuldar fəallıq nümayiş etdirməklə fond ulu öndərin ideyalarına ləyaqətlə xidmət etdiyini təsdiqləyib. Məhz Birinci vitse-prezident Mehriban Əliyevanın əzmkar rəhbərliyinin nəticəsidir ki, fond öz fəaliyyəti ilə ölkəmizin dünyadakı yüksək imicinin formalaşmasına böyük töhfələr verir.

Heydər Əliyev Fondu Mehriban xanım Əliyevanın rəhbərliyi ilə milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək edib, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləyib, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə töhfələrini verib, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərib. 2004-2018-ci illər ərzində fonda müraciət etmiş insanlara kömək göstərilməsi üçün səhiyyə müəssisələri ilə sıx əlaqə qurulub, minlərlə insanın müayinə və müalicəsi üçün lazımi tədbirlər həyata keçirilib. Təhsil ocaqlarındakı kimsəsiz uşaqların sağlamlığının təmin olunması istiqamətində həyata keçirilən sosial layihələr xüsusilə təqdirəlayiqdir. Bu layihələr səhhətindəki problemlər üzündən əziyyət çəkən insanları yenidən sağlam həyata qaytarır və onlara həyat eşqi verir. Fondun "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələri də cəmiyyətdə böyük diqqət və rəğbətlə qarşılanıb. Heydər Əliyev Fondu ürək xəstəliklərindən əziyyət çəkən körpələrin bir qisminə xarici ölkələrdə cərrahiyyə əməliyyatı aparılmasına köməklik göstərib. Heydər Əliyev Fondunun təhsillə bağlı layihələri də vətəndaşların təhsil hüquqlarının daha etibarlı təminatı məqsədinə xidmət edir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva sosial, humanitar, mədəni sahələrdəki işləri ilə yanaşı, ictimai-siyasi fəaliyyəti ilə də nümunə təşkil edir. Qeyd etmək yerinə düşər ki, Mehriban xanım Əliyeva Ulu öndərin yaratdığı Yeni Azərbaycan Partiyasının 1992-ci ildən fəal üzvü olub və bu gün də partiyanın Sədr müavini kimi müasir və müstəqil dövlətimizin daha da inkişaf etməsi prosesinin ən aparıcı simasına çevrilib. Heydər Əliyev Fonduna rəhbərlik etdiyi, Milli Məclisə deputat seçildiyi vaxtdan bəri ölkə həyatının elə bir sahəsi olmayıb ki, Mehriban xanım Əliyevanın diqqətindən kənarda qalsın. Daim seçicilərinin yanında olan, onların problemlərini dinləyən və həll edən deputat kimi bütün xalqın rəğbətini və məhəbbətini qazanan Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin edilməsi hər bir azərbaycanlını ürəkdən sevindirdi. Çünki ümummilli lider Heydər Əliyevin ölməz ideyalarına bütün varlığı ilə bağlı olan, Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli daxili və xarici siyasətə layiqli töhfələrini verən Heydər Əliyev Fondunun prezidentinin Ulu öndərin memarı və qurucusu olduğu müstəqil Azərbaycan dövlətinin ali idarəetmə sistemində ikinci yüksək vəzifəni daşımasına çoxdan siyasi və mənəvi haqqı çatırdı. Xalqımızın milli mədəniyyətinin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında Mehriban xanımın müstəsna xidmətləri onu cəmiyyətə mötəbər ictimai-siyasi xadim kimi tanıtmışdı. Bu gün Yeni Azərbaycan Partiyasının sədr müavini kimi Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti həm də Azərbaycan qadınının üzləşdiyi problemlərin, çətinliklərin aradan qaldırılmasına, onların cəmiyyətdə öz layiqli yerlərini tutmasına yönəlmişdir. Bu fəaliyyət qadınlarımız tərəfindən böyük rəğbətlə, diqqətlə, ehtiramla qarşılanır, onların YAP-a, ölkə iqtidarına, Prezident İlham Əliyevə inamını, məhəbbətini daha da artırır. Mehriban xanım Əliyevanın Milli Məclisin deputatı kimi 10 illik fəaliyyəti dövründə də daim seçicilərinin yanında olması parlamentdə təmsil etdiyi ərazidə onun təşəbbüsü ilə yerinə yetirilən sosial layihələrlə millətə vəkilliyin parlaq örnəyini yaratmışdır. O, bir neçə dəfə Milli Məclisdə amnistiya təşəbbüsü ilə çıxış etmiş, 30 mindən çox məhkum bu aktlar əsasında müxtəlif növ cəzalardan azad edilərək azadlığa, evinə, ailəsinə qovuşmuşdur. Mehriban xanım bununla göstərmişdir ki, cəmiyyətə layiqli vətəndaş qazandırmağın yolu onu cəzalandırmaqdan daha çox bağışlamaq, sosial həyata inteqrasiyasına lazımi şərait yaratmaqdır. "Hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hisslər əsas yer tutmalıdır" deyir Mehriban xanım: "O cəmiyyətdə ki həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti məhz bu prinsiplər əsasında həm öz həyatını, həm öz fəaliyyətini qurur, o cəmiyyət inkişaf etmiş, uğurlu cəmiyyətdir. Mərhəmət təkcə çətinliyə düşən insanlara yardım əlini uzatmaq deyil. Mərhəmət bəzən çətin və məsuliyyətli qərar qəbul etməyi tələb edir".

Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunmasının səbəbi böyük idarəçilik təcrübəsi və xalqının sevgisini qazanması ilə yanaşı, həm də ölkə Prezidenti İlham Əliyevin ən yaxın silahdaşı, yardımçısı, mənəvi dəstəkçisi olması ilə bağlı idi. Daha doğrusu, Azərbaycanın birinci xanımı Birinci vitse-prezident təyin olunana qədər deputat və fond rəhbəri kimi reallaşdırdığı uğurlu layihələrlə, dövlət müstəqilliyimizin əsaslarının və Prezident İlham Əliyevin liderlik nüfuzunun möhkəmlənməsinə geniş ictimai dəstək qazandırmışdı. Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi keçirdiyi ilk müşavirədə də qaçqın və məcburi köçkünlərin problemlərini, bu istiqamətdə görülən işləri diqqət mərkəzində saxladı, bundan sonra da görüləcək işləri, qarşıda duran vəzifələri diqqətə çatdırdı. O, yeni missiyasına başlamaqla ağır sosial şəraitdə yaşayan insanların problemlərinin həlli üçün qısa müddətdə yeni layihənin həyata keçiriləcəyini vurğuladı. Təsadüfi deyildir ki, Mehriban xanım Əliyeva mətbuata müsahibələrinin birində belə deyib: "Uğur xatirinə uğur, hakimiyyət xatirinə hakimiyyət və ambisiya mənim üçün heç vaxt aparıcı motiv olmayıb. Əsas məsələ odur ki, ehtiyacı olan insanlara kömək edəsən".

Bir sözlə, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın işləri Azərbaycanda və dünya ölkələrində dərin hörmətə, rəğbətə, xoş münasibətə əsas yaradan ali fəaliyyət nümunəsi kimi qəbul edilməkdədir.

Böyük inkişaf yolu keçən Azərbaycan bu gün bir çox sahələrdə olduğu kimi, idmanda da mühüm uğurlara imza atıb. 2015-ci ilə nəzər yetirdikdə isə, ən böyük idman hadisəsi, sözsüz ki, tarixdə ilk dəfə təşkil olunan Avropa Oyunlarının Bakıda keçirilməsi idi. Ölkəmiz 2 ildən çox davam etdirilən yüksəksəviyyəli hazırlıq işlərindən sonra Avropanın 50 ölkəsindən 6 mindən çox idmançının mübarizə apardığı bu idman yarışını Azərbaycan 21-i qızıl, 15-i gümüş, 20-si bürünc olmaqla 56 medal qazanaraq, 50 ölkə arasında 2-ci yeri tutaraq növbəti dəfə güclü olduğunu göstərdi.

Prezident İlham Əliyev 2013-cü il 17 yanvar tarixində "I Avropa Oyunlarının 2015-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" sərəncam imzaladı. Sərəncama əsasən Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın sədrliyi ilə Bakı şəhərində I Avropa Oyunlarının keçirilməsi üzrə Təşkilat Komitəsi yaradıldı.

Bu tipli oyunlar üçün 7-8 il vaxt verilsə də, Azərbaycanın Avropa Oyunlarına hazırlıq üçün cəmi iki il yarım vaxtı vardı. Olimpiadanın keçirilməsində artıq böyük təcrübə mövcuddur və Beynəlxalq Olimpiya Komitəsi, demək olar ki, hər bir sahə üzrə öz göstərişlərini verir. Mövcud təlimatlarda hər bir istiqamət üzrə müəyyən edilmiş metodiki qaydalar var. I Avropa Oyunları üçün isə heç bir təlimat və təcrübə yox idi. Belə



olan halda bütün məsuliyyət, təşkilati məsələlərin yoluna qoyulması Azərbaycanın üzərinə düşürdü. Bu müddət ərzində Bakıda yeni infrastrukturun yaradılması və Oyunların təşkili üzrə digər işlərin sürətlə həyata keçirilməsi göstərdi ki, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi hazırlıq işlərini göstərilən vaxtda yüksək səviyyədə başa çatdırdı.

Bu uğurların qazanılmasında, sözsüz ki, Avropa Oyunları Təşkilat Komitəsinin rəhbəri Mehriban xanım Əliyevanın xüsusi rolu vardı. Prezident İlham Əliyevin dediyi kimi, Təşkilat Komitəsi tərəfindən hər bir xırda məsələ ilə bağlı işlər yüksək səviyyədə görülüb. Mehriban Əliyeva bu Oyunların keçirilməsinə çox böyük töhfə verib.

Dövlət başçısı Azərbaycan Respublikasında mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Mehriban xanım Əliyevanı "Heydər Əliyev" ordeni ilə təltif etdi.

Mehriban Əliyevanın respublikamızın Birinci vitse-prezidenti təyin olunmasından ötən dövr uzun deyil. Lakin bu qısa zaman kəsiyinin təhlili göstərir ki, Mehriban Əliyeva Birinci vitse-prezident kimi dövlətimizə və xalqımıza layiqincə xidmət edir. Məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi, 2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi bu müddətdə birbaşa Birinci vitse-prezidentin diqqət yetirdiyi məsələlər olub. Ölkəmizin evsahibliyi etdiyi beynəlxalq tədbirlərin layiqincə keçirilməsi, müxtəlif ölkələrin və təşkilatların rəhbərlikləri ilə ikitərəfli görüşlərin keçirilməsi, orta məktəblərin, uşaq bağçalarının, mədəniyyət ocaqlarının təmiri və yenidənqurulması bu müddətdə Mehriban Əliyevanın fəaliyyətində prioritet təşkil edib.

Birinci vitse-prezident Mehriban Əliyevanın dövlətimizə və xalqımıza layiqincə xidmət edəcəyi, Azərbaycanın daha da çiçəklənməsinə töhfələrini verəcəyi, xüsusən sosial qayğıya ehtiyacı olan insanların yanında olacağı əvvəldən aydın idi. Və elə ilk günlərdən bu qənaət özünü uğurla doğrultdu. Bu gün Mehriban Əliyeva özünə xas olan yüksək işgüzar və mənəvi keyfiyyətlər, dərin təşkilatçılıq və idarəçlik qabiliyyəti ilə ona həvalə edilən bu vəzifəni layiqincə daşıyır, ölkədə həyata keçirilən siyasi kursun uğur qazanmasına layiqli töhfələr verir. Bu gün Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi uğurla fəaliyyət göstərir, öz fəaliyyətində xalqımızın mənafeyini, dövlətimizin maraqlarını əsas götürür. Azərbaycanın Birinci vitse-prezidenti öz fəaliyyəti ilə ölkəmizin inkişafına dəyərli töhfələr verir, respublikamızı beynəlxalq miqyasda uğurla təmsil edir.

Artıq davamlı inkişaf yolunda inamla irəliləyən Azərbaycanı qarşıda daha möhtəşəm uğurlar gözləyir. Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək istəyimiz reallıqdır. Dövrün tələbinə uyğun olaraq təkmilləşmə, yeniləşmə dövlət siyasətimizin əsasını təşkil edir. Səylərin birləşdirilməsi fonunda qarşıya qoyulan hər bir məqsədə yüksək səviyyədə nail olmaq mümkündür. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu fikirlərini xatırlatmaq istərdik: "Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar."

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inkişafının yeni mərhələsinə qədəm qoyub. Dövlətimiz öz iqtisadi nailiyyətləri ilə dünyanın qabaqcılları sırasındadır. Qazandığımız hər bir uğur həm də onu təsdiqləyir ki, alternativi olmayan Heydər Əliyev siyasi xəttinin davam etdirilməsi Azərbaycanın bugünkü və gələcək inkişafının yeganə etibarlı təminatıdır.

**Etibar ƏLİYEV,**
**iqtisad elmləri üzrə fəlsəfə doktoru.**